# Otuz ildən sonra yurda qayıdış

***Hazırda düşməndən azad edilmiş ərazilərimizdə geniş miqyasda tikinti, bərpa-quruculuq işləri aparılır. Azərbaycanın 30 ilə yaxın bir dövr ərzində işğal altında qalan torpaqlarında indi bir coşğunluq yaşanır, yeni layihələr uğurla həyata keçirilir. Hər bir keçmiş məcburi köçkün məskunlaşma gününü həsrətlə gözləyir.***

Belə bir arzu dünən Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınan Ağalı kəndinə ilk sakinlərin köçürülməsi ilə gerçəkləşdi. Uzun bir dövr doğma yurdlarına qovuşmaq həsrəti ilə yaşayan məcburi köçkünlərin gözlədikləri tarixi hadisə reallaşdı.

Xatırladaq ki, işğala qədər Ağalı kəndi – bu inzibati ərazi vahidi 3 kəndi birləşdirib. Həmin vaxt Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Yeni Ağalı kəndinə birinci mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var.

Kənddə sakinlərin rahat yaşayışını təmin etmək üçün hər cür şərait qurulub. Ağalı kəndində "Ağıllı kənd" konsepsiyasının hər üç komponenti – ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda, ağıllı təsərrüfat və biznes mühiti yaradılıb.

Evlərin bölgüsü keçmiş məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılıb. Püşkatma bir müddət bundan əvvəl Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Repatriasiya Departamentində keçirilib.

Ağalıya köçürülən ilk sakinlər arasında təqaüdçü, tələbə, evdar qadınlar olmaqla yanaşı, mühəndis, satıcı-kassir, gözətçi, bağban, aqronom, müəllim, həkim, kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər və s. xidmət, səhiyyə və təhsil sahələri üzrə ixtisaslaşmış kadrlar var.

Mövcud qanunvericiliyə əsasən, hər bir məcburi köçkün daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcək.

Yeri gəlmişkən, Prezident İlham Əliyev ötən il aprelin 26-da Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd"in təməlqoyma mərasimində sakinlərlə görüşündə "Böyük Qayıdış bu gün başlayır" sözləri ermənilərin xarabalığa çevirdikləri torpaqların tezliklə gülüstana çevriləcəyi əminliyi qəlbimizdə fərəh hissi doğurmuşdu. Dövlət başçımızın həmin səfərində Cəbrayıl rayonunun girişində "Cəbrayıla xoş gəlmişsiniz!" sözləri yazılmış lövhənin qarşısında söylədiyi fikirlər bu inam və ümidi daha da gücləndirmişdi: "Bunun paslanmış görüntüləri artıq mətbuatda da var. Ona görə tarixi ədaləti bərpa edərək, Cəbrayıl rayonunun girişində yerləşən bu "Xoş gəlmişsiniz!" lövhəsini, abidəni biz yenidən bərpa etdik. Azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bütün şəhərləri, kəndləri bərpa edəcəyik".

Sonra dövlətimizin başçısı Zəngilan rayonunun sakinləri ilə görüşmüşdü. Bu görüş zamanı diqqətçəkən bir məqamı indi xatırlatmaq istərdik. Belə ki, Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərlə səmimi söhbətlərində bildirmişdi ki, Zəngilanda bu cür "ağıllı kənd" yaradılmasa belə, onlar əvvəlki qaydada bərpa olunan yurd yerlərinə həvəslə, sevinc hissi ilə dönməyə hazırdırlar. Çünki hər bir azərbycanlıda, xüsusilə dogma torpaqlarından illərlə didərgin düşən soydaşlarımızda Vətənə bağlılıq son dərəcə güclüdür. Gənclərin də belə duyğu ilə yaşamaları hamımızda iftixar, qürur hissi doğurur. Sevindirici haldır ki, qəlbində güclü Vətən sevgisi olan belə bir gənc nəsil tərbiyə edilib yetişdirilməsində Prezident İlham Əliyevin müstəsna xidmətləri danılmazdır. Çünki dövlətimizin başçısının vurğuladığı kimi, bu yerləri görməyən hər bir gənc böyüyəndən sonra dogma torpağına qayıtmaq, burada qurub-yaratmaq istəyi ilə tərbiyə olunub, boya-başa çatdırılıb.



Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci ilin oktyabr ayında Azərbaycana səfəri çərçivəsində dövlətimizin başçısı İlham Əliyevlə birlikdə Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olmaları da bu yaşayış sahəsinin qısa bir zaman ərzində məskunlaşdırılacağından xəbər verirdi. O zaman burada dövlət başçılarına verilən məlumat bölgənin yaxın gələcəkdə dünyada "Ağıllı diyar" kimi tanınacağına əminlik yaradırdı.

Layihənin icrası ilə tanış olan qardaş ölkənin rəhbərinə bildirilmişdi ki, burada 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ inşaat materialları əsasında tam izolyasiya olunan 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. "Ağıllı kənd"də müasir şəhərsalma standartlarının tətbiqi, piyada və velosiped yollarının çəkiləcəyi nəzərdə tutulur.

Bəli, o vaxtdan ötən müddətdə nəzərdə tutulan layihələr yüksək səviyyədə reallaşdırılıb. Ağalıda sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarımızda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi ucaldılıb. Qəsəbədə, eyni zamanda, "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, həmçinin Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub.

Bu obyektlərin istifadəyə verilməsi ilə kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışı gerçəkləşir, onların "ASAN" və ya "DOST" xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə daha ehtiyac qalmır.

Onu da qeyd edək ki, adları çəkilən mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək. Belə ki, vətəndaş tərəfindən birbaşa videobağlantı ilə "DOST" mərkəzlərinin sosial agentinə müraciət olunacaq.

Kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri, habelə digər ictimai iaşə obyektləri də sakinlərin ixtiyarına verilib.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər yüksək səviyyədə reallaşdırılıb. Bütün bunlarla bərabər, kənddə "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi də inşa olunub.

Ağalıda aqrar sektorun inkişafı məsələlərinə də xüsusi önəm verilib. Bununla bağlı "ağıllı kənd"də bir sıra yeniliklər tətbiq edilib. Məsələn, kəndin kənarında yerləşən böyük əkin sahəsində pilot sistemlər quraşdırılıb. Bu sistemlərlə 157 hektar sahənin suvarılması nəzərdə tutulub. Eyni zamanda, kənd ərazisində iqlim stansiyalarının da tikilməsi planlaşdırılıb.

Bundan başqa, kənd ərazisində yeni intensiv bağlar salınmasına, bağçılığın sürətli inkişafı üçün layihələrin həyata keçirilməsinə başlanıb. Xarici investisiya hesabına kəndin kənarında camışçılıq ferması yaradılması nəzərdə tutulub. Dünyaca məşhur "Motsarella" pendiri hazırlanaraq bazara çıxarılması da planlaşdırılıb.

Bu gün az müddət ərzində Zəngilanda dirçəliş, genişmiqyaslı bərpa-quruculuq ölkəmizin, eləcə də Qarabağ və Şərqi Zəngəzurun hər bir sakinində qürur hissi doğurur. İnsanların Vətən həsrətinə son qoyduğuna, Ağalı kəndində qısa zamanda belə bir nəhəng layihəni gerçəkləşdirdiyinə görə Zəngilan əhalisi dövlət başçımızın hər zaman olduğu kimi, indi də siyasətini dəstəkləyir, bir yumruq kimi ətrafında birləşir.

Sakinlər Zəngilanda "Ağıllı kənd" kimi möhtəşəm bir layihənin uğurla reallaşdırıldığına, necə dəyərlər, yoxdan var yaradıldığına görə, Prezident İlham Əliyevə dərin təşəkkürlərini çatdırırlar.

Beləliklə, hazırda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işləri sürətlə aparılır, respublikamız postmünaqişə dövrünün gündəliyini formalaşdırır və dünya gücləri bu reallıqları qəbul edir. "Ağıllı kənd"də – Ağalıda məskunlaşmaya başlanılması isə ölkəmizin güc-qüdrətini nümayiş etdirməklə bərabər, həm də Azərbaycanın həyatında yeni səhifə açır. Bu, respublikamızın dünyaya, regiona sülh çağırışları fonunda qurub-yaratmaq əzmindən xəbər verir.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***